**Anbar təsərrüfatı şöbəsi (Qulluqçu kateqoriyası) üzrə**

**test tapşırıqları**

1. Azərbaycan Respublikası Qanunvericiliyinə uyğun müəssisələrdə, idarə və ya təşkilatlarda könüllü hansı dəstələr yaradıla bilər?

A) Patrul xidməti dəstəsi
B) İlk tibbi yardım dəstəsi
C) Qaz-qəza xidməti dəstəsi
D) Yanğından mühafizə dəstəsi
E) Mühafizə xidməti dəstəsi
Testin çətinlik dərəcəsi: Asan
İstinad: "Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları" haqqında Azərbaycan Respublikasının DİN BDYTİ-in 25.05. 2001-ci il tarixli 85 nömrəli Əmri.

2. Anbar qapısının qarşısında nəzərdə tutulmuş keçidlərin eni nə qədər olmalıdır?

A) 0.9 m-dən az olmamaq şərti ilə
B) 0.9 m-dən çox olmamaq şərti ilə
C) 1 m-dən az olmamaq şərti ilə
D) 1.5 m-dən az olmamaq şərti ilə
E) 1.5 m-dən çox olmamaq şərti ilə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

3. Hansı şərtlə yanar qaz balonlarının açıq meydançada saxlanılmasına icazə verilir?

A) Yanğınsöndürmə lövhəsi yaxın olduqda
B) Lakların və rənglərin yanında olmaq şərti ilə
C) Binadan 3 metr və daha aralı olduqda
D) Açıq meydançada saxlanılmasına icazə verilmir
E) Atmosfer çöküntüləri və günəş şüalarının təsirindən qorumaq şərti ilə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

4. Sahə ölçü vahidini tapın.

A) kvadrat metr
B) kub metr
C) saniyə
D) amper

E) volt
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.02.2011-ci il tarixli 23 nömrəli qərarı.

5. Müəssisə tərəfindən hesab-ödəmə tələbnaməsi yazılan və banka artıq təhvil verilən, lakin malalanlar tərəfindən dəyəri ödənilməyən məhsullar (işlər, xidmətlər) necə adlanır?

A) Zay olmuş məhsullar
B) Ləğv olunmuş məhsullar
C) Geri qaytarılmış məhsullar
D) Göndərilmiş məhsullar
E) Tez köhnələn məhsullar
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Ə.A.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti. 2-ci hissə. Bakı, 2002.

6. ME51N əməliyyat kodu nə üçün istifadə olunur?

A) Alış tələbnaməsini gözdən keçirmək
B) Alış tələbnaməsinin yaradılması
C) Alış tələbnaməsinin dəyişdirilməsi
D) Alış tələbnaməsinin təsdiqlənməsi
E) Alış tələbnaməsinin ləğv edilməsi
Testin çətinlik dərəcəsi: Asan
İstinad: https://www.guru99.com/how-to-create-a-purchase-requisition.html

7. I, II, III və IV dərəcəli odadavamlı yanğın təhlükəsi CO və C1 binalara bitişik rampalar və talvarların konstruksiyaları hansı materialdan olmalıdır?

A) Taxta materialdan
B) Plastik materialdan
C) Rezin örtükdən
D) Dəmirdən
E) Yanmayan materialdan
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Anbar və istehsalat binaları” haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli 117 nömrəli qərarı.

8. Texniki təhlükəsizlik və sanitariya-gigiyena tələblərinə uyğun olan xüsusi anbarda zəhərli kimyəvi maddələrin saxlanılması üçün nə ilə təmin olunmalıdır?

A) Yanğınsöndürmə lövhələri ilə

B) 12 tonluq kran ilə
C) Metrə və ştangenpərgar ilə
D) Tərəzi ilə
E) Avtoyükləyici ilə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

9. Anbar müdiri aşağıdakılardan hansına görə məsuliyyət daşıyır?

A) Vəzifə təlimatındakı funksiyaların yerinə yetirilməsinə
B) Gətirilən malların sayına və rənginə
C) Gətirilən malların keyfiyyətinə və sayına
D) Gətirilən malların istehsal tarixinə
E) Gətirilən malların rənginə və keyfiyyətinə
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

10. Anbarın hansı yerində lakların, rənglərin, qaz dolu balonların və s. saxlanması qadağandır?

A) Anbarın girişində
B) Anbarın zirzəmisində
C) Yanğınsöndürmə lövhəsinin yaxınlığında
D) Anbarın yanğın təhlükəsiz olan yerlərində
E) Anbarın içərisində və ya onun istənilən ərazisində
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

11. Zavod şəraitində hazırlanan konstruksiyaların və avadanlıqların dəqiq çəkisini necə öyrənmək olar?

A) Zavod pasportundan, hesablama nəticəsində
B) Hesablama nəticəsindən, işçi cizgisindən
C) Ölçmə nəticəsindən, zavod pasportundan
D) İşçi cizgisindən, zavod pasportundan
E) Hesablama nəticəsindən, ölçmə nəticəsindən
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Yüklər və təsirlər. “Layihələndirmə normaları” haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 15.04.2015-ci il tarixli 02 nömrəli qərarı.

12. Anbardar hansı qayda və normaları bilməlidir?

A) Öz peşəsini və boşaltma-yükləmə qaydalarını
B) Boşaltma-yükləmə qaydalarını, ilkin tibbi yardım qaydalarını
C) Yanğın təhlükəsizlik qaydalarını, yükləmə-boşaltma qaydalarını
D) Təhlükəsizlik texnikasının qayda və normalarını
E) Ümumi bilikləri olmalıdır
Testin çətinlik dərəcəsi: Asan
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

13. Daşınması xüsusi nəqliyyat vasitəsi: bunker, vaqonlar, konteynerlər, treylerlər tələb edən axınlar necə adlanır?

A) Orta material axınları
B) Kiçik material axınları
C) Kütləvi material axınları
D) Səpələnmiş-tökülmüş
E) İri material axınları
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

14. Sürət ölçü vahidini qeyd edin.

A) Metr
B) Kubmetr
C) M/kvadrat saniyə
D) Kvadratmetr
E) M/s
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.02.2011-ci il tarixli 23 nömrəli qərarı.

15. Yanar qaz balonları saxlanılan anbarların qaz qatılığının təhlükəsizliyini təmin etmək üçün nə olmalıdır?

A) Yanğınsöndürmə lövhələri
B) Qapı, pəncərələri olmalıdır
C) Qumla dolu kisələr
D) Məcburi ventilyasiya
E) Yanğınsöndürmə balonları
Testin çətinlik dərəcəsi: Çətin

İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

16. Yükləmə-boşaltma meydançasına daxil olan bütün yükü daşıyan nəqliyyat vasitələri nə ilə təchiz olunmalıdır?

A) Qırmızı kiçik bayraq bərkidilməli
B) Yanğınsöndürən balonla
C) “Zəhərli maddə” yazılan lövhəylə
D) Tüstü boruları qığılcım söndürənlə
E) “Təhlükəli maddə” yazılan lövhəylə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

17. Yükləmə-boşaltma istehsalı üçün nəzərdə tutulan, bir tərəfdən dəmir yolu xətti, əks tərəfdən avtogiriş yolu boyu yerləşən qurğu hansıdır?

A) Rampa
B) Platforma
C) Etajer
D) Antresol
E) Meydança
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Anbar və istehsalat binaları” haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli 117 nömrəli qərarı.

18. Anbarlarda mal qonşuluğuna riayət etmək nə deməkdir?

A) Malların keyfiyyətinə, rənginə və istehsal tarixinə əsasən yığılması
B) Diametrlərinə və keyfiyyətinə uyğun yığılması
C) Qığılcım törədə bilən və yaxud partlayış təhlükəsi olan mallarla tezalışan və oddan təhlükəli malların ayrı-ayrı yerləşdirilməsi
D) Qabaritinə və rənginə əsasən yığılması
E) İdarələr üzrə yığmaq, nömrəmələk, qeydiyyatdan keçirmək və oddan təhlükəli malların ayrı-ayrı yerləşdirilməsi
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

19. Ədədlə daşınan yüklərin ümumi yığım hündürlüyü kuzovun bortlarının hündürlüyündən çox olduqda, yük nə ilə bərkidilməlidir?

A) Metal kanatla
B) Polad məftillə
C) Kanat ya kəndirlə
D) Polad trosla
E) Polad zəncirlə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: S.Mamedov. Təhlükəsiz əmək şəraiti. Qanunlar, qərarlar, sənəd nümunələri, şərhlər. Bakı, 2008.

20. Yanmaya kömək edən, tez alovlanma yaradan və (və ya) oksidləşmə-bərpaedici ekzotermik reaksiya nəticəsində, digər maddələrin tez alovlanmasına səbəb olan maddələr necə adlanır?

A) Tez alışan maddələr
B) Partlayıcı maddələr
C) Tez alovlanan maddələr
D) Oksidləşən maddələr
E) Zəhərləyici maddələr
Testin çətinlik dərəcəsi: Asan
İstinad: "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidentinin 08.02.2002-ci il tarixli 29 nömrəli qərarı.

21. Yanar qaz balonları istilik mənbələrindən neçə metr aralı saxlanılmalıdır?

A) 2 m-dən az olmayan məsafədən
B) 3 m-dən az olmayan məsafədən
C) 1 m-dən az olmayan məsafədən
D) 4 m-dən az olmayan məsafədən
E) 5 m-dən az olmayan məsafədən
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

22. Tələbnamə-qaiməsinin forması hansıdır?

A) M-17№-li forma
B) M-11№-li forma
C) M-8№-li forma
D) M-7№-li forma
E) M-4№-li forma
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.Nəbiyeva. Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi. Bakı, 2015.

23. Mal-materialın təhvil alınması prosesi necə baş verir (alıcı-satıcı arasında)?

A) Alıcı tərəfindən qaimə-faktura təqdim edilir, satıcı tərəfindən vəkalətnamə ilə alınır
B) Satıcı tərəfindən vəkalətnamə təqdim edilir, alıcı tərəfindən qaimə-faktura ilə alınır
C) Alıcı tərəfindən vəkalətnamə təqdim edilir və sonra satıcı tərəfindən tərtib olunmuş qaimə-fakturaya əsasən alınır
D) Alıcı tərəfindən tələbnamə təqdim edilir və satıcı tərəfindən qaimə-faktura ilə alınır
E) Alıcı tərəfindən vəkalətnamə təqdim edilir və sonra satıcı tərəfindən tərtib olunmuş tələbnaməyə əsasən alınır
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: “Elektron qaimə-faktura haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli qərarı.

24. Eyni vaxtda bir neçə nəqliyyat vasitəsi yüklənib-boşaldılarsa, onların ortasındakı məsafə neçə metr olmalıdır?

A) 2 m-dən az olmamalıdır
B) 1 m-dən az olmamalıdır
C) 3 m-dən az olmamalıdır
D) 5 m-dən az olmamalıdır
E) 4 m-dən az olmamalıdır
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

25. Uzunölçülü yükləri daşıyarkən, yükləri düşməkdən qoruyan qaldırıcı və qatlanan dayaqlar yuxarıdan nə ilə bağlanmalıdır?

A) Armaturla
B) Kəndirlə
C) Zəncirlə və ya burazla
D) Katinka ilə
E) Yanmış məftillə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

26. Bucurqadların, kranların və digər yükqaldırma mexanizmlərinin yükün və mexanizmin öz-özünə hərəkətinə imkan vermilməməsi üçün nə olmalıdır?
1. Əks qaykalar
2. Yükqaldırma məhdudlaşdırıcısı
3. Əyləc qurğusu

4. Təsbitləyici
5. Şplintlər

A) 1, 2, 3
B) 1, 3, 4
C) 1, 4, 5
D) 2, 3, 4
E) 3, 4, 5
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

27. ME33K əməliyyat kodundan nə üçün istifadə olunur?

A) Alış müqaviləsini gözdən keçirmək
B) Alış müqaviləsinin dəyişdirilməsi
C) Alış müqaviləsinin yaradılması
D) Alış tələbnaməsinin dəyişdirilməsi
E) Alış tələbnaməsinə yaradılması
Testin çətinlik dərəcəsi: Asan
İstinad: https://www.se80.co.uk/saptcodes/m/me33/me33k.htm

28. Alqı-satqı müqaviləsində malın kimə verilməsi nəzərdə tutulur?

A) İstehsalçıya
B) Xidmət göstərənə
C) Alıcıya
D) Satıcıya
E) Nəqliyyat vasitəsinin sürücüsünə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: Ə.A.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti. 2-ci hissə. Bakı, 2002.

29. Güc ölçü vahidini qeyd edin.

A) Amper
B) Volt
C) Vatt
D) Kulon
E) Coul
Testin çətinlik dərəcəsi: Asan
İstinad: "Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri" haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.02.2011-ci il tarixli 23 nömrəli qərarı.

30. Anbar otaqlarında psixrometr hansı məqsədlə quraşdırılır?

A) Havanın nəmliyini ölçülməsi üçün
B) İşıqlandırma dərəcəsinin ölçülməsi üçün
C) Küləy axınlarının sürətinin ölçülməsi üçün
D) Qaz qarışıqlarının keyfiyyətini ölçülməsi üçün
E) Cisimlərin kütləsini ölçmək üçün
Testin çətinlik dərəcəsi: Orta
İstinad: http://az.wikipediya.org/wiki/cihazlar_və_qurğular . 28.08.2019.

31. Təbii ventilyasiya üçün nədən istifadə olunur?
1.Nəfəsliklər
2.Framuqalar
3.Kondision
4.Elektrik ventilyatorlar
5.Pəncərələr

A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 5
E) 1, 3, 4
Testin çətinlik dərəcəsi: Asan
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

32. Mexanikləşdirilmiş vasitələrlə yükləmə və boşaltma işləri aparan zaman hansı qadağan deyil?

A) Sürücünün kabinəsində yüklərin gətirilməsi və aparılması
B) Yüklərin istiqamətləndirilməsi məqsədi ilə avtokranın banında fəhlələrin olması
C) Yükqaldırıcı mexanizmin yükqaldırma qabiliyyətindən yüngül yüklərin qaldırılması
D) Yükqaldırıcı mexanizmin yükqaldırma qabiliyyətindən ağır yüklərin qaldırılması
E) Yükün üstündə adam olduqda onu qaldırmaq və yerini dəyişmək
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

33. Materialların anbara mədaxili hansı hərəkət növü vasitəsilə həyata keçirilir?

A) 101
B) 311
C) 415

D) 201
E) 311Q
Testin çətinlik dərəcəsi: Orta
İstinad: https://help.sap.com/doc/saphelp_erp60_sp/6.0/en-S/4d/6df0468bf051b0e10000000a42189c/content.htm?no_cache=true

34. Anbarda mal-material yerləşdirilərkən hansı işlər görülməlidir?

A) Mal-materialın qalıq sayı göstərilən yarlıq yapışdırılmalıdır
B) Təmizlik işləri görülməlidir
C) Anbar müdirinə məlumat verilməlidir
D) Dezinfeksiya işləri aparılmalıdır
E) İdarə rəisinə məlumat verilməlidir
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

35. Fasilələr vaxtı boruların asılmış halda saxlanmasına hansı hallarda icazə verilir?

A) Yükün ağırlığı 1000 kq-a kimi olduqda
B) Yükün asılmış halda saxlanması qadağandır
C) Yükün ağırlığı 2000 kq-a kimi olduqda
D) Yükün ağırlığı 1500 kq-a kimi olduqda
E) Yükün ağırlığı 3000 kq-a kimi olduqda
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

36. Müəssisəyə daxil olan materialların texniki ekspertizası və laboratoriya sınaqları kim tərəfdən həyata keçirilir?

A) Təchizat Şöbəsinin Rəisi
B) Anbar müdiri
C) Rəhbərliyin təyin etdiyi komissiya
D) Baş mühəndis
E) Təchizat şöbəsinin mühəndisi
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.Nəbiyeva. Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi. Bakı, 2015.

37. Malların bölgüsü (məxarici) aşağıdakı hallardan hansında mümkündür?

A) Malın dəyəri ödənildikdən sonra

B) Alqı-satqı müqaviləsi bağlandıqdan sonra
C) Mal anbara mədaxil olunduqdan sonra
D) Mal anbardan məxaric olunduqdan sonra
E) Malın keyfiyyətinin standartlara uyğunluğu yoxlandıqdan sonra
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: “Qaimə-fakturanın forma və rekvizitləri və onlardan istifadə qaydaları” haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 14.07.2000-ci il tarixli 1-115 nömrəli Əmri.

38. Oksigen balonlarının əllə daşınması zamanı nə qadağandır?

A) Qapaqdan tutmaq
B) Gövdədən tutmaq
C) Ventildən tutmaq
D) Başmaqdan tutmaq
E) Rezin halqadan tutmaq
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

39. İnzibati, istehsal, anbar və digər təyinatlı bina və otaqların görünən yerlərində hansı xidmətin çağırış telefon nömrələrini bildirən göstərici lövhə asılmalıdır?

A) Mühafizə xidməti
B) Qaz qəza xidməti
C) Yanğın təhlükəsizliyi xidməti
D) Dövlət yol polis xidməti
E) Post-patrul xidməti
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: “Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları“ haqqında Azərbaycan Respublikasının DİN BDYTİ-in 25.05. 2001-ci il tarixli 85 nömrəli Əmri.

40. İxtisaslaşdırılmış anbarların bir neçə məhsul qrup üzrə fəaliyyətinin məhdudlaşdırılması nəyə səbəb olur?

A) Xərclərin çoxalmasına
B) Anbarın yararsızlaşdırılmasına
C) Məhsulların azalmasına
D) Məhsulların çoxalmasına
E) Anbarın xırdalanmasına
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

41. Materiallara yaranmış tələbatlara baxış hansı əməliyyat kodunda həyata keçirilir?

A) ME51N
B) MD04
C) ME33K
D) MİGO
E) ME54N
Testin çətinlik dərəcəsi: Orta
İstinad: https://www.guru99.com/material-requirement-planning-sap-pp.html

42. Qruplar üzrə  anbar uçot vərəqələrin (kart) uçotu necə aparılır?

A) Uçot vərəqələri ardıcıl olaraq nömrələnir
B) Uçot vərəqələri müvafiq rənglə rənglənir
C) Uçot vərəqələri uçotun aparılması üçün vacib deyil
D) Uçot vərəqələri qeydiyyata alınır
E) Uçot vərəqələri qruplara bölünmür
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

43. Mal-materialların tarasının üzərində "stəkan" işarəsi nəyi bildirir?

A) Spirtli içkilərin olduğunu
B) Tezalışan materialın olduğunu
C) Mal-materialın maye halında olduğunu
D) Tez qırılan mal-materialların olduğunu
E) Sudan və yağışdan qorunmalı olduğunu
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Yüklərin markalanması. QOST 14192-96. 04.10.1996.

44. Yanar qaz balonunda sızma aşkar olunarsa, nə etmək lazımdır?

A) Sızmanı aradan qaldırmaq lazımdır
B) Həmin balon anbardan kənarlaşdırılmalıdır
C) Aktlaşdırılır və rəhbərliyə məlumat verilir
D) Rəhbərliyə məlumat verilir
E) Aktlaşdırılır
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

45. Anbar ərazisində istifadə olunan yükqaldıran maşın və mexanizmlərin görünən (oxunan) yerində hansı məlumat göstərilməlidir?

A) Sürücü haqqında məlumat
B) Texnikanın tabe olduğu idarə
C) İstifadə təlimatı
D) Yükqaldırma qabiliyyəti, növbəti texniki yoxlamanın tarixi
E) Texniki yoxlamanın nəticələri
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

46. Yanar qaz balonları saxlanılan anbarlar necə olmalıdır?
1. Çardaqsız
2. Ara kəsməsiz
3. Yüngül tip örtüklü
4. Qapalı
5. Yanmayan konstruksiyalardan tikilməli, birmərtəbəli olmalıdır

A) 1, 2, 4
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 2, 3
E) 1, 4, 5
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

47. Hansı xidmətlərin göstərilməsi anbar əməliyyatları adlanır?

A) Material axınlarının yerdəyişməsi
B) Materialların təmir olunması
C) Şəxsi istehlaka hazırlanması
D) Səpkili xidmətlərin göstərilməsi
E) Materialların alıcıya çatdırılması
Testin çətinlik dərəcəsi: Asan
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

48. Banın (kuzovun) bortlarının hündürlüyündən artıq çıxan ədədlə daşınan yüklər nə ilə bərkidilməlidir?

A) Saz kəndirlə
B) Yanmış məftillə
C) Armaturla
D) Metal kanatla
E) Katinka ilə

Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

49. Anbarda keçirilən inventarlaşdırılmanın mövcud olan qanunçuluq tələblərinə uyğun keçirilməsinə və onun nəticələrinin mühasibat uçotunda əks etirilməsinə kim cavabdehdir?

A) Baş mühasib
B) Təchizat şöbəsinin rəisi
C) Müəssisənin rəhbəri
D) Tikinti şöbəsinin rəisi
E) Baza müdiri
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Ə.A.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti. 2-ci hissə. Bakı, 2002.

50. Çəki, ölçü və həcmindən asılı olmayaraq bir vaqon və ya avtomobilə yerləşən yük vahidlərindən ibarət axınlar necə adlanır?

A) Ağır çəkili material axınları
B) Kütləvi material axınları
C) İri material axınları
D) Kiçik material axınları
E) Orta material axınları
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

51. Sıxlıq ölçü vahidini qeyd edin.

A) M/s
B) Kq/kubmetr
C) Kubmetr
D) Kvadratmetr
E) M/kvadrat saniyə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: "Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri" haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.02.2011-ci il tarixli 23 nömrəli qərarı.

52. Müəssisədə əsas vəsaitlərin obyektlər üzrə inventar kartları nə üçün açılır?

A) Mədaxil edilməsi üçün
B) Məxaric edilməsi üçün
C) Uçotun təşkili üçün
D) Təmir olunması üçün

E) Ləğv olunması üçün
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Q.R.Rzayev. Mühasibat uçotu və audit. Dərslik. Bakı, 2006.

53. Mal-materialların buraxılması hansı sənədə əsasən yerinə yetirilir?

A) Tələbnamə ilə
B) Mədaxil orderi
C) Vəkalətnamə ilə
D) Müqavilə
E) Elektron-qaimə ilə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Elektron qaimə-faktura haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli qərarı.

54. Diametri 300 mm-dən böyük borular ştabellərə yığılanda hansı hündürlüyə kimi yığılmalıdır?

A) 4 metrə kimi
B) 6 metrə kimi
C) 3 metrə kimi
D) 7 metrə kimi
E) 5 metrə kimi
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Qaldırıcı kranlara təhlükəsiz xidmət edən takelajçılar üçün təlimat. 01.01.1993-cü il tarixli, ТОИ Р-66-18-93.

55. Mal-materiallar anbara daxil olarkən nəyə nəzarət olunmalıdır?

A) Mal-materialın qaimədə göstərilən miqdarına, qablaşdırılmasına və keyfiyyətinə
B) Mal-materialı istehsal edən ölkəyə
C) Mal-materialın qaimədə göstərilən miqdarına və rənginə
D) Mal-materialın qaimədə göstərilən miqdarına və tərkibinə
E) Mal-materialın rənginə və tərkibinə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. ВСН 212-85.

56. Diametri 300 mm-ə kimi borular ştabellərə hansı hündürlüyə kimi yığılmalıdır?

A) 3 metrə kimi
B) 4 metrə kimi
C) 5 metrə kimi

D) 6 metrə kimi
E) 7 metrə kimi
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Qaldırıcı kranlara təhlükəsiz xidmət edən takelajçılar üçün təlimat. 01.01.1993-cü il tarixli, ТОИ Р-66-18-93.

57. Bağlı yerləşgələrdə yerləşdikdə pandusların mailliyi nə qədər olmalıdır?

A) 14%-dən çox olmamalıdır
B) 12%-dən çox olmamalıdır
C) 16%-dən çox olmamalıdır
D) 10%-dən çox olmamalıdır
E) 8%-dən çox olmamalıdır
Testin çətinlik dərəcəsi: Orta
İstinad: "Anbar və istehsalat binaları" haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli 117 nömrəli qərarı.

58. Temperatur dəyişikliklərinə həssas  məhsullar harada saxlanılmalıdır?

A) Qapalı isidilməyən anbarlarda
B) Dam altında
C) İxtisaslaşdırılmış anbarlarda
D) Qapalı isidilmiş anbarlarda
E) Açıq ərazilərdə
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. ВСН 212-85.

59. Ştabelləmə üsulu ilə hündürlüyü üst-üstə 2 cərgədən artıq hansı materialların yığılması qadağandır?

A) Fundament blokları
B) Mis kabel və mis məftillər
C) Polad burazlar və troslar
D) Barabanda gərginlik kabeli
E) Konteynerə yığılmış kərpiclər
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: V.İ.Puşin. Takelajçı üçün şəkilli dərslik. Moskva, 2002.

60. ________________________ polad kanatdan istifadə etmək olar? Düzgün variantı seçin

A) Kanatın özəyi paslanıbsa
B) Kanatın özəyi əzilibsə
C) Hörüyün özəyi əzilibsə
D) Kanatda burulma varsa
E) Kanatda dalğa və zənbiləbənzər şəkilli deformasiya varsa
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

61. Alınan, satılan və bölünən (paylanan) mal-materialların uçotu nə üçün vacibdir?

A) İşçilərin əməkhaqqını hasablanması üçün
B) İstifadədə olan mal-materialları təyin etmək üçün
C) Mal-materialların uçotunun aparılması vacib deyil
D) Anbarda olan mal-materialların miqdarının azaldılması üçün
E) Müəssisəyə mədaxil və məxaric olunan mal-materialların dövriyyəsini bilmək üçün
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

62. 1 atm neçə MPa-dır?

A) 0.001MPa
B) 0.1MPa
C) 0.01 MPa
D) 1 MPa
E) 10 MPa
Testin çətinlik dərəcəsi: Asan
İstinad: https://ru.wikipediya.org/wiki/Единицы_измерения_давления

63. Anbara daxil olan katalizator, reagent və kimyəvi maddələr hansı şəraitdə saxlanılmalıdır?

A) Açıq və isti binalarda
B) Qapalı və isti binalarda
C) Qapalı və quru yerlərdə
D) İşıqlı, quru və isti yerlərdə
E) Açıq, quru və isti binalarda
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

64. Zəhərli kimyəvi maddələrin yükləmə və boşaldılması zamanı nələrə yol verilməməlidir?

A) Taranı qaldırmaq, yerlə sürümək
B) Taranı zədələmək, zəhərli maddəni dağıtmaq
C) Zəhərli maddəni başqa qablara bölüşdürmək
D) Siqaret çəkmək
E) Kənar şəxslərin yükləmə-boşaltma işlərinə müdaxilə etmək
Testin çətinlik dərəcəsi: Orta
İstinad: "Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması" haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.01.2007-ci il tarixli 10 nömrəli qərarı.

65. Mal-materialın götürülməsi üçün verilən vəkalətnamə neçə gün müddətində icra olunmalıdır?

A) 5 gün ərzində icra olunmalıdır
B) Göstərilən müddət ərzində
C) 3 gün ərzində icra olunmalıdır
D) 1 gün ərzində icra olunmalıdır
E) 10 gün ərzində icra olunmalıdır
Testin çətinlik dərəcəsi: Orta
İstinad: "Qaimə-fakturanın forma və rekvizitləri və onlardan istifadə qaydaları" haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 14.07.2000-ci il tarixli 1-115 nömrəli Əmri.

66. Mal-material qəbulunda hansı ardıcıllığa əməl etmək lazımdır?
1) Materialların boşaldılması
2) İlkin sənədlərinə baxış
3) Materialların miqdarının yoxlanılması
4) Materialların keyfiyyətinin yoxlanılması
5) Materialların mədaxili

A) 5, 4, 3, 2, 1
B) 1, 2, 3, 4, 5
C) 5, 1, 2, 3, 4
D) 1, 5, 2, 3, 4
E) 1, 5, 4, 3, 2
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: A.M.Qadjinskiy. Müasir anbar. Moskva, 2005.

67. Anbara daxil olmuş mal-materialın qaiməsi sonradan hara təhvil verilir?

A) Anbara
B) Mühasibatlığa
C) Bazaya
D) Satıcıya

E) Texniki şöbəyə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Qaimə-fakturanın forma və rekvizitləri və onlardan istifadə qaydaları” haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 14.07.2000-ci il tarixli 1-115 nömrəli Əmri.

68. Elektron-qaimə ilə alınmış avadanlıq üçün əlavə hansı sənəd tələb olunmalıdır?

A) Daşınma haqqında yol vərəqəsi
B) Avadanlığın texniki pasportu və sertifikatı
C) Avadanlığın istismarı üzrə təlimatı
D) Sertifikat
E) Avadanlığın keyfiyyəti üzrə sertifikat və təlimatı
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

69. MB21 əməliyyat kodundan nə üçün istifadə olunur?

A) Ehtiyatda saxlamanın yaradılması
B) Ehtiyatda saxlamanın dəyişdirilməsi
C) Ehtiyatda saxlamanı gözdən keçirmək
D) Ehtiyatda saxlamanın ləğv edilməsi
E) Ehtiyatda saxlamanın təsdiqlənməsi
Testin çətinlik dərəcəsi: Asan
İstinad: https://www.guru99.com/reservation-of-inventory.html

70. Malın üzərindəki "çətir" işarəsi nəyi bildirir?

A) Qablaşdırılan malın parça məmulatdan olmasını
B) Malın əzilməkdən qorumağın vacibliyini
C) Qablaşdırılan malın istiyə davamsız olmasını
D) Malı sudan-yağışdan qorumaq lazımdır
E) Qablaşdırılan malın spirtli içki olmasını
Testin çətinlik dərəcəsi: Asan
İstinad: Yüklərin markalanması. QOST 14192-96. 04.10.1996.

71. Yükləmə-boşaltma rampa və platformalarda (yükləmə-boşaltma istehsalı üçün nəzərdə tutulan qurğu) nə olmalıdır?

A) 3-dən az olmayan hissədə pilləkəni və ya pandusu
B) 4-dən az olmayan hissədə pilləkəni və ya pandusu
C) 5-dən az olmayan hissədə pilləkəni və ya pandusu
D) 2-dən az olmayan hissədə pilləkəni və ya pandusu

E) 6-dən az olmayan hissədə pilləkəni və ya pandusu
Testin çətinlik dərəcəsi: Orta
İstinad: “Anbar və istehsalat binaları” haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli 117 nömrəli qərarı.

72. Şirkətin istehlakçılara yüksək səviyyəli xidmət göstərilməsi üçün hansı xidmət növlərinin kəmiyyətcə sayını artırılmalıdır? Səhv cavabı tapın.

A) Məhsullara əmtəəlik görkəminin verilməsi
B) Məhsullara yararsız görkəminin verilməsi
C) Nəqliyyat-ekspedisiya xidmətləri
D) Məhsulların satışa hazırlanması
E) Cihazların işəyararlılığının yoxlanılması
Testin çətinlik dərəcəsi: Orta
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

73. Ağır və uzunölçülü yüklərin qaldırılması və yerdəyişməsi zamanı nədən istifadə edilir?

A) Boru kəsiyindən
B) Metal parçadan
C) Taxta əşyalardan
D) İnventar vasitələrdən və alətlərdən
E) İp və kəndirlərdən
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

74. Elektrik gərginliyi, elektrik potensialı, elektrik potensialları fərqi, elektrik hərəkət qüvvəsinin ölçü vahidini tapın.

A) amper
B) volt
C) vatt
D) kulon
E) coul
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Azərbaycan Respublikasının ərazisində tətbiq olunan ölçü vahidləri” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.02.2011-ci il tarixli 23 nömrəli qərarı.

75. Anbar, bina və qurğuların bir mərtəbəsində birdəfəlik 10 nəfərdən çox adam olarsa, yanğın zamanı insanların köçürülməsi üçün, nə işlənib hazırlanmalı və görülən yerlərdə asılmalıdır?

A) Giriş və çıxış lövhəsi
B) Toplantı yeri lövhəsi
C) Köçürmə planı
D) Siqaret çəkmək üçün yer
E) Çağırış telefon nömrələri
Testin çətinlik dərəcəsi: Orta
İstinad: “Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları“ haqqında Azərbaycan Respublikasının DİN BDYTİ-in 25.05. 2001-ci il tarixli 85 nömrəli Əmri.

76. Yükləmə - boşaltmada və yüklərin daşınmasında hər bir fəhləyə (yeniyetməyə) düşən yük norması hansı qanunla tənzimlənir?

A) Əmək Məcəlləsi haqqında qanunla
B) Mühasibat uçotu haqqında qanunla
C) Konstitusiya haqqında qanunla
D) Texniki təhlükəsizlik haqqında qanunla
E) Radiasiya təhlükəsizlik haqqında qanunla
Testin çətinlik dərəcəsi: Asan
İstinad: S.Mamedov. Təhlükəsiz əmək şəraiti. Qanunlar, qərarlar, sənəd nümunələri, şərhlər. Bakı, 2008.

77. Normal təzyiqdə və hava ilə qarışdıqda tez alovlanma qabiliyyəti olan və normal təzyiqdə qaynama temperaturu 20 dərəcə C və ya aşağı olan qazlar necə adlanır?

A) Oksidləşən maddələr
B) Yüksək zəhərləyici maddələr
C) Tez alovlanan maddələr
D) Partlayıcı maddələr
E) Zəhərləyici maddələr
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidentinin 08.02.2002-ci il tarixli 29 nömrəli qərarı.

78. Bağlayıcı armaturlarda (siyirtmələrdə, kranlarda) hansı vəziyyət göstəriciləri yazılmalıdır?

A) Əl vurma öldürər
B) Açıqdır, Bağlıdır
C) Təhlükə: Yüksək gərginlik
D) Siqaret çəkmək qadağandır
E) Təhlükəli maddə
Testin çətinlik dərəcəsi: Çətin

İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

79. Həddi-buluğa çatmayan qızlar üçün əllə yüklənib-boşaldılmasında və daşınmasında (qısa məsafəyə) hər bir nəfərə düşən yük norması hansıdır?

A) 5 kq-a kimi
B) 20 kq-a kimi
C) 15 kq-a kimi
D) 25 kq-a kimi
E) 10 kq-a kimi
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

80. Statik sınaq zamanı qaldırıcı kranın qarmağı saxlaya bilən (pasportda göstərilən) yükdən neçə faiz artıq yüklənməlidir?

A) 0.3
B) 0.25
C) 0.35
D) 0.1
E) 0.4
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Kranların quruluşu və təhlükəsiz istismarı qaydaları. 17.08.2000-ci il tarixli, ПБ 10-382-00.

81. Yanar divarlı anbarlarda ümumi elektrik açarı harada yerləşir?

A) Anbar divarında
B) Anbar otağının xaricində, yanan divarda
C) Qapının üstündə
D) Ayrıca dayanmış dirəkdə quraşdırılmış şkaf və ya taxçada
E) Qapının yanında
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

82. Tələbnamədə dəyişiklik kimin icazəsi ilə edilə bilər?

A) İdarə rəhbərliyinin
B) Mal satan təşkilat rəhbərliyinin
C) Təsərrüfat üzrə direktor müavininin

D) Təchizat şöbəsinin rəisinin
E) Baş mühəndisin
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Q.Ə.Abbasov. Materialların uçotunun təşkili və onun təkmilləşdirilməsi istiqamətləri. Maliyyə və uçot jurnalı, № 10. Dekabr 2002.

83. Təchizatçı aldığı mal-materialı hara təhvil verməlidir?

A) Müəssisənin anbarına
B) Satıcıya
C) Bazara
D) Baş mühəndisə
E) Müdirə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. ВСН 212-85.

84. Qarmaqlar necə emal edilir?

A) Əritmə-tökmə
B) Kəsmə-yanma
C) Doğrama-qırma
D) Döymə-ştamplama
E) Mexaniki-emal
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Е.В.Аникьев. Учебное пособие для подготовки по профессии «Стропальщик» 2-3 разрядов. Москва, 2007.

85. Anbara daxil olan mal-materialın uçotu necə aparılır?

A) Anbara daxil olan hər bir mala anbar uçot kartı açılır, daxil olan sənədin nömrəsi, tarixi, miqdarı kartda qeyd olunur
B) Anbara daxil olan malın haradan gəlməsi barədə jurnalda qeydiyyat aparılır
C) Təchizatçıdan mal-material haqqında mühasibatlığa məlumat verilməsi tələb olunur
D) Mal gətirən nəqliyyatın qeydiyyat nişanı,sürücünün adı və soyadının qeydiyyatı aparılır
E) Anbara daxil olan malın miqdarı və keyfiyyəti barədə qeydiyyat aparılır
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. ВСН 212-85.

86. Vəkalətnamənin forması hansıdır?

A) M-4№-li forma

B) M-2№-li forma
C) M-7№-li forma
D) M-8№-li forma
E) M-11№-li forma
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: G.Nəbiyeva. Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi. Bakı, 2015.

87. Kisə və torbalarda olan yüklər necə yığılmalıdır?

A) Yüklər üst-üstə, yan-yana və ya tək-tək yığılmalıdır
B) Yüklər yan-yana yığılmalı və bir- birini bağlamalıdır
C) Yüklər kisə və torbalarda tək-tək yığılmalıdır
D) Yüklər tək-tək və ya qalaq şəklində yığılmalıdır
E) Yüklər kisə və torbalarda qalaq şəklində yığılmalı və bir-birini bağlamalıdır
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

88. Müəssisələrə mal-materialın ayrılması zamanı əsasən nə nəzərə alınmalıdır?

A) Müəssisənin yerləşdiyi ərazinin ölçüsü
B) Müəssisənin faktiki tələbatı və anbar qalığı
C) Təchizatçının istəyi
D) Mal-materialın keyfiyyəti
E) Mal-materialın bütün müəssisələr arasında bərabər bölünməsi
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Ə.A.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti. 2-ci hissə. Bakı, 2002.

89. Bir neçə müştərinin sifariş tələbnamələri əsasında nəqliyyat vasitəsinin tam doldurulması üçün yük partiyalarının birləşdirilməsi necə adlanır?

A) Modernizasiya
B) Utilizasiya
C) Kompensasiya
D) Unitizasiya
E) İnovasiya
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: T.İ.İmanov. Logistikanın əsasları. Bakı, 2005.

90. Zəhərli kimyəvi maddələrin daşınması üçün ayrılmış nəqliyyat vasitəsinə verilən tələblər hansılardır?

A) Bortu qırmızı boya ilə rənglənməli, “zəhərli maddə” sözləri yazılmalı, hər tərəfinə ağ kiçik bayraq bərkidilməli
B) Bortu muvafiq boya ilə rənglənməli, “zəhərli maddə” sözləri yazılmalı, hər tərəfinə qırmızı kiçik bayraq bərkidilməli
C) “Təhlükəli maddə” sözləri yazılmalı, hər tərəfinə ağ kiçik bayraq bərkidilməli
D) Hər tərəfinə sarı kiçik bayraq bərkidilməli, “təhlükəli maddə” sözləri yazılmalı
E) Bortu sarı boya ilə rənglənməli, “təhlükəli yük” sözləri yazılmalı, ağ böyük bayraq bərkidilməli
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: “Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.01.2007-ci il tarixli 10 nömrəli qərarı.

91. Müəssisələrin, ərazilərin, bina, tikililər və açıq anbarların aralarındakı yanğına qarşı ara məsafələri vaxtında nədən təmizlənməlidir? Səhv cəvabı tapın.

A) Yanğınsöndürmə lövhəsindən
B) Məişət və tikinti zibilindən
C) Quru otlardan
D) Tökülmüş yarpaqlardan
E) Yanar materiallardan
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: “Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları“ haqqında Azərbaycan Respublikasının DİN BDYTİ-in 25.05. 2001-ci il tarixli 85 nömrəli Əmri.

92. Qrup halında yanar qaz balonlar harada saxlanılmalıdır?

A) Qapalı anbarda
B) Yanmayan materialdan hazırlanmış budkarda
C) Xüsusi budkalarda
D) Anbarın zirzəmisində
E) Taxtadan hazırlanmış budkada
Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

93. Zəhərli kimyəvi maddələr hansı tələblərə uyğun olaraq qablaşdırılır və markalanır?

A) İdarə rəisinin tələblərinə uyğun
B) Texniki şöbənin rəisinin tələblərinə uyğun
C) Tikinti şöbəsinin rəisinin tələblərinə uyğun
D) Müvafiq standartlara və texniki şərtlərə uyğun olaraq
E) Təchizat şöbəsinin rəisinin tələblərinə uyğun
Testin çətinlik dərəcəsi: Çətin

İstinad: “Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.01.2007-ci il tarixli 10 nömrəli qərarı.

94. Kranların, qaldırıcı və başqa yükqaldırıcı maşınların texniki sazlığı istismara buraxılmazdan əvvəl və sonra hansı müddətdə müayinə olunmalıdır?

A) İldə 12 dəfə
B) İldə 4 dəfə
C) İldə 3 dəfə
D) İldə 2 dəfə
E) İldə 1 dəfə
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: "Magistral neft kəmərlərinin istismarında texniki təhlükəsizlik qaydaları" haqqında Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin 18.12.2002-ci il tarixli 45 nömrəli əmri.

95. MBBS əməliyyat kodu nə üçün istifadə olunur?

A) Ehtiyatda saxlamaları gözdən keçirmək
B) Alış tələbnaməsini gözdən keçirmək
C) Alış tələbnaməsinin dəyişdirilməsi
D) Layihə üzrə xüsusi anbar qalığına baxış
E) Təchizat sifarişinin yaradılması
Testin çətinlik dərəcəsi: Orta
İstinad: https://www.se80.co.uk/saptcodes/m/mbbs/mbbs.htm

96. Anbarın rəflərində hər 40 m-dən bir nəzərdə tutulmuş keçidlərin ölçüləri neçə olmalıdır?

A) Hündürlüyü 2 m-dən və eni 1 m-dən az olmayaraq
B) Hündürlüyü 1.5 m-dən və eni 1.5 m-dən az olmayaraq
C) Hündürlüyü 1.5 m-dən və eni 1 m-dən az olmayaraq
D) Hündürlüyü 2 m-dən və eni 0.9 m-dən az olmayaraq
E) Hündürlüyü 2 m-dən və eni 1.5 m-dən az olmayaraq
Testin çətinlik dərəcəsi: Orta
İstinad: “Anbar və istehsalat binaları” haqqında Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 23.11.2009-ci il tarixli 117 nömrəli qərarı.

97. Anbar müdiri mal-materialların anbara qəbulu zamanı nəyə diqqət yetirməlidir?

A) Mal-materialın qaimədə göstərilən miqdarına, qablaşdırılmasına və keyfiyyətinə
B) Mal-materialın qaimədə göstərilən miqdarına və rənginə
C) Mal-materialın qablaşdırılmasına və rənginə

D) Mal-materialın qaimədə göstərilən miqdarına və tərkibinə
E) Mal-materialın qablaşdırılmasına və tərkibinə
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

98. İstehsal əməliyyatından keçmiş, lakin öz keyfiyyənə görə müəyyən olunmuş standartlara, texniki göstəricilər və ya sifarişçi ilə bağlanmış müqavilə şərtlərinə uyğun olmayan məhsul və yarımfabrikatlar necə adlanır?

A) Əsas vəsait
B) Azqiymətli əşyalar
C) Zay məhsul
D) Tezköhnələn əşyalar
E) Müvəqqəti tikintilər
Testin çətinlik dərəcəsi: Çətin
İstinad: Ə.A.Sadıqov. Mühasibat (maliyyə) uçotu. Dərs vəsaiti. 2-ci hissə. Bakı, 2002.

99. Mal – materialın alınması üçün qaimə-faktura alıcı tərəfindən hansı sənəd təqdim edildikdən sonra yazılır?

A) Mədaxil orderi
B) Sifariş və tələbnamə
C) Müqavilə
D) Tələbnamə və müqavilə
E) Vəkalətnamə
Testin çətinlik dərəcəsi: Asan
İstinad: "Qaimə-fakturanın forma və rekvizitləri və onlardan istifadə qaydaları" haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 14.07.2000-ci il tarixli 1-115 nömrəli Əmri.

100. Anbar ərazisində təzyiq altında işləyən qabların üzərində hansı məlumat göstərilməlidir?
1. İcazə verilən təzyiq
2. Növbəti texniki yoxlamanın tarixi
3. Qeydiyyat nömrəsi
4. İstifadə təlimatı

A) 1, 2, 4
B) 2, 3, 4
C) 1, 3, 4
D) 1, 2, 3, 4
E) 1, 2, 3
Testin çətinlik dərəcəsi: Asan

İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

101. Turşuların saxlanılan anbarda, təsadüfən tökülən turşunun dərhal neytrallaşdırılması üçün nə saxlanılmalıdır?
1. Soda məhlulu
2. Üzvi mənşəli maddələr
3. Əhəng
4. Təbaşir

A) 1, 2, 4
B) 2, 3, 4
C) 1, 3, 4
D) 1, 2, 3, 4
E) 1, 2, 3
Testin çətinlik dərəcəsi: Asan
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

102. Anbar uçotu vərəqələri nə vaxt açılır?

A) Anbarda təmizlik işləri aparıldıqda
B) Anbardan mal-materiallar məxaric olduqda
C) Anbarda malların rəfləri dəyişdirilәndə
D) Mallar qablaşdırılanda
E) Anbara mal-material mədaxil olduqda
Testin çətinlik dərəcəsi: Orta
İstinad: Əsas tikinti materialların anbara qəbulu, yerləşdirilməsi, saxlanması və daşınması haqqında tələblər. BCH 212-85.

103. Anbarda təmizlik (sildikdə) işləri apardıqda hansı mayelərdən istifadə etmək olmaz?
1. Sudan
2. Benzindən
3. Ağ neftdən
4. Həllediciləndən
5. Spirtdən

A) 1, 2, 3
B) 1, 3, 4
C) 1, 4, 5
D) 1, 2, 5
E) 2, 3, 4

Testin çətinlik dərəcəsi: Orta
İstinad: G.O.Mirheydərova. Neftqazçıxatma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2013.

104. Zəhərli kimyəvi maddələrin qruplarını müəyyən etmək üçün insektisid və akarisid saxlanılan taraların üzərinə nə rəngdə zolaq çəkilməlidir?

A) Qara
B) Yaşıl
C) Göy
D) Sarı
E) Qırmızı
Testin çətinlik dərəcəsi: Asan
İstinad: “Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.01.2007-ci il tarixli 10 nömrəli qərarı.

105. Zəhərli kimyəvi maddələr daşınan və ya daşındıqdan sonra təmizlənməyən və zərərləşdirilməyən nəqliyyatda:

A) Həmin nəqliyyatdan istifadə etmək qadağandır
B) İnsanların daşınmasına icazə verilir
C) Ərzaq və yem məhsullarının daşınması qadağandır
D) Ərzaq məhsullarının daşınmasına icazə verilir
E) Yem məhsullarının daşınmasına icazə verilir
Testin çətinlik dərəcəsi: Orta
İstinad: “Zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.01.2007-ci il tarixli 10 nömrəli qərarı.

106. Mal-materialın invertarizasiyası nə məqsədlə aparılır?

A) Anbarda və sahələrdə olan mal-materialların faktiki uçotunu araşdırmaq məqsədilə
B) Anbarda və sahələrdə olan mal-materialların keyfiyyətini müəyyən etmək üçün
